


**Azərbaycanın qədim mədəniyyət ocaqlarından biri də Beyləqan rayonu sayılır. Ona görə ki, bu mədəniyyətin kökləri Örənqala şəhərinə gedib çıxır. Bu gün də Beyləqan mədəniyyəti inkişaf edir. Belə ki, rayonda yerləşən mədəniyyət şəbəkəsi genişlənmiş, onların sayı 90-a çatmışdır. Bu müəssisələrdə 325 nəfər çalışır ki, onların da 265 nəfəri mədəni-maarif işçiləridir. Bu işçilərin çoxunu-262 nəfərini qadınlar təşkil edir. Bu da mədəniyyət şöbəsində gender məsələsinə xüsusi diqqətin olduğuna dəlalət edir.**

# Beyləqan

## mədəniyyət işçilərinin qayğıları

**Beyləqan rayonunda 4 rayon kitabxanası, 43 kənd kitabxana filialları fəaliyyət göstərir. Eyni zamanda 36 klub müəssisəsi, rayon mədəniyyət evi, 17 kənd mədəniyyət evi, 18 kənd klubu, 1 yeddiillik uşaq musiqi məktəbi, 1 rayon tarix-diyarşünaslıq muzeyi, 1 Heydər Əliyev muzeyi, 1 mədəniyyət və istirahət parkı rayon əhalisinin xidmətindədir.**

Beyləqan rayonu ərazisində 10 tarixi və memarlıq abidəsi qeydə alınmışdır. Hazırda həmin abidələr Rayon Mədəniyyət və Turizm Şöbəsinin mühafizəçiləri tərəfindən qorunur. Mədəni-maarif müəssisələrinin maddi-texniki vəziyyətini möhkəmləndirmək məqsədi ilə 13250 manat məbləğində lazımi inventar və avadanlıqlar alınmışdır.

Rayon əhalisinin asudə vaxtlarını səmərəli təşkil etmək üçün 2005-2010-cu illərdə rayon mədəniyyət və turizm şöbəsinin tədbirlər planına uyğun olaraq konsertlər, ədəbi-bədii gecələr, məruzə və mühazirələr təşkil edilmiş, tarixi günlər, əlamətdar hadisələr geniş surətdə qeyd edilməklə hər il bir

çox kütləvi tədbirlər hazırlanaraq geniş ictimaiyyət qarşısında nümayiş etdirilmişdir.

Hər il mütəmadi olaraq yeni il şənlikləri, 8 mart Qadınlar və Novruz bayramları ilə əlaqədar keçirilmiş tədbirlər ümumrayon səviyyəsində keçirilmişdir. Bu tədbirlər özünün kütləviliyi ilə digərlərindən daha çox fərqləndiyi üçün bu səpgidə keçirilən tədbirlərə rayon mədəniyyət və turizm şöbəsi, həmçinin rayon icra hakimiyyəti daha çox diqqət və qayğı göstərir.

Yay aylarında hər həftənin bazar günləri H.Əliyev adına parkda təşkil edilən konsert və tamaşalara təkcə rayon deyil, digər yerlərdən də tamaşaçılar gəlir ki, bu da tədbirin effektini daha da artırır.

Tarixi günlərdə vətənimizin keşikçisi olan əsgər və zabitlər daim diqqət mərkəzində olduğu üçün rayonun incəsənət işçiləri 2005-2010-cu illər ərzində əsgərlər qarşısında 500 dəfədən artıq konsert proqramları ilə çıxış ediblər.

Respublika Prezidentinin Sərəncamına əsasən regionlarda aparılan abadlıq işləri Beyləqan rayonunda da geniş vüsət almışdır. Son 5 ildə rayonda yeni mədəniyyət və istirahət parkı salınmış, parkda ulu öndərin möhtəşəm heykəli ucaldılmış və onun Azərbaycan dövlətçiliyi tarixinə verdiyi əvəzedilməz töhfələri xalqa çatdırmaq üçün Heydər Əliyev muzeyi tikilərək geniş ictimaiyyətə təqdim olunmuşdur.

Bu illər ərzində Azərbaycanda analoqu olmayan Azərbaycan tarixini xronoloji ardıcıllıqla əks etdirən açıq səma altında muzey yaradılmış və burada müasir standartlara cavab verən tarix-diyarşünaslıq muzeyi tikilib istifadəyə verilmişdir.

Rayon mədəniyyət və turizm şöbəsinin tədbirlər planına uyğun olaraq hesabat ilində də tarixi hadisələr, bayramlar və yubileylərlə bağlı bir sıra silsilə tədbirlər hazırlanaraq geniş ictimaiyyət qarşısında nümayiş etdirilmişdir.

Beləki, rayonun bütün mədəni-maarif müəssisələrində tarixi hadisələr, rəsmi dövlət tədbirləri, el bayramları ilin əvvəlində təsdiq olunmuş tədbirlər planı əsasında həyata keçirilmiş, Azərbaycan Respublikası prezidentinin xarici ölkələrə səfərləri, ölkələrin dövlət başçıları ilə keçirdiyi görüşlər barədə geniş təbliğat işi aparılmışdır.

Tarixi və əlamətdar günlərin qeyd edilməsi ilə əlaqədar olaraq rayon mədəniyyət evində 20 yanvar Milli matəm gününün ildönümünə həsr olunmuş "Şəhidlər ölmür", 26 fevral Xocalı faciəsinin ildönümünə həsr olunmuş "Əsrin Xocalı faciəsi", 31 mart Azərbaycanlıların soyqırımı gününə həsr olunmuş "Azərbaycanlıların soyqırımı və erməni vəhşiliyi" adlı ədəbi-bədii kompozisiyalar və dəyirmi masalar təşkil edilmişdir.

2 fevral Gənclər gününə həsr olunmuş tədbirdə gənclər qarşısında "Mil" xalq çalğı alətləri ansamblının çıxışı, 8 mart Beynəlxalq Qadınlar günü münasibətilə "Günəş də ziyasın anadan alır" adlı ədəbi-bədii kompozisiya, 9 may faşizm üzərində qələbənin 65-ci ildönümünə həsr olunmuş "Biz sizdən öyrəndik qəhrəmanlığı" adlı ədəbi-bədii kompozisiya, 10 may ümummilli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibətilə "Bir ömrün səlnaməsi"adlı mövzuda ədəbi-bədii kompozisiya və digər tədbirlər geniş tamaşaçı kütləsi tərəfindən rəğbətlə qarşılanmışdır.

31 dekabr Dünya Azərbaycanlılarının həmrəyliyi günü və Yeni il münasibətilə musiqili-əyləncəli şənliklər, 12 noyabr Konstitusiya gününə həsr olunmuş "Qanunların aliliyini qorumaq və təbliğ etmək hər birimizin borcudur" adlı mövzuda dəyirmi masa, 17 noyabr Milli Dirçəliş gününə həsr olunmuş "Vətən, torpaq, azadlıq və müstəqillik uğrunda mübarizəyə qalxan xalqımız" adlı dəyirmi masalar keçirilmişdir.

2009-cu ilin respublika prezidenti cənab İlham Əliyevin sərəncamı ilə uşaq ili elan edilməsi ilə əlaqədar maraqlı tədbirlər də keçirilmişdir. Belə ki, 2 may 2009-cu il tarixdə "Uşaqlar bizim gələcəyimizdir" adlı musiqili-əyləncəli şənlik, 25 may 2009-cu il tarixdə "Uşaqlar, deyin, gülün" adlı musiqili-əyləncəli gecə, 1 iyun 2009-cu il tarixdə "Gülüzlü, gülərüzlü şən uşaqlar" musiqili-əyləncəli ədəbi-bədii gecə, 12 iyun 2009-cu il tarixdə "İstedadlı uşaqlar" çərçivəsində əlil uşaqların rəsm əsərlərinin sərgisi, 27 noyabr 2009-cu il tarixdə "Deyin, gülün, şadlıq sizə yaraşır" adlı səhnəciklər təşkil edilmişdir.

Dağlıq Qarabağ savaşı zamanı erməni qəsbkarları tərəfindən işğal olunmuş rayonların işğal günü ilə əlaqədar olaraq anma mərasimləri keçirilmişdir. Belə ki, 8 may 1992-ci il Şuşa, 18 may 1992-ci il Laçın, 3-4 aprel 1993-cü il Kəlbəcər, 23 iyul 1993-cü il Ağdam, 23 avqust 1993-cü il Cəbrayıl, 23 avqust 1993-cü il Füzuli, 31 avqust 1993-cü il Qubadlı, 30 oktyabr 1993-cü il Zəngilan rayonlarının işğalı ilə əlaqədar tədbirlər və anma mərasimləri keçirilmişdir.

Xalqımızın həyatında müstəsna rol oynayan, milli adət və ənənələrimizi özündə əks etdirən müqəddəs Novruz bayramına həsr olunmuş 20 mart tarixdə "N" saylı hərbi hissədə bayram şənliyi, 21 martda isə Mərkəzi idman meydançasında "Novruz gəlir, yaz gəlir" adlı teatrlaşdırılmış meydan tamaşası göstərilmişdir.

Görkəmli adamların, şair, yazıçı və incəsənət xadimlərinin yubileylərinin qeyd edilməsi sahəsində də bir çox məqsədyönlü işlər görülmüşdür... Belə ki, şair, qəzəlxan Əliağa Vahidin anadan olmasının 115 illiyi münasibətilə "Adın qalacaqdır yadigar" adlı ədəbi-bədii gecə, yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin anadan olmasının 140 illiyi münasibətilə "Zəmanəsinin yazıçısı" adlı mövzuda söhbət, Beyləqanlı şair Vilyəddin Əhmədbəyin "Bu gedən karvanın, görən, köçü nə?..." şeirlər kitabının təqdimat mərasimi, yazıçı-dramaturq Mehdi Hüseynzadənin anadan olmasının 100 illiyi, yazıçı İsmayıl Şıxlının 90 illiyi, dramaturq Cəfər Cabbarlının 100 illiyi ilə əlaqədar söhbətlər keçirilmişdir.

Bundan əlavə, xalq artisti Lütvəli Abdullayevin anadan olmasının 95 illiyi ilə bağlı "Ölməz sənətkar" adlı mövzuda söhbət, ədəbiyyatşünas Nizami Cəfərovun yubileyi münasibəti ilə "Novator ədəbiyyatçı" adlı söhbət təşkil edilmişdir. Beyləqan rayonu sərhəd zonasında yerləşdiyi üçün, hərbi vətənpərvərlik və mədəni hamilik şöbənin əsas işi olduğundan bu sahəyə daha çox diqqət və qayğı göstərilir.

Mədəniyyət və Turizm şöbəsi tərəfindən mədəni hamiliyə götürülmüş hərbi hissələrdə və sərhəd dəstələrində Mədəniyyət evinin "Mil" xalq çalğı alətləri ansamblı və instrumental ansamblın üzvləri mütəmadi olaraq əsgər və zabitlər qarşısında çıxış edirlər. Bu mədəni xidmətə görə komandanlıq Mədəniyyət və Turizm şöbəsinə Fəxri fərmanlar verilmiş və təşəkkürlər etmişdir.

Rayon Mədəniyyət evində fəaliyyət göstərən Taekvondo dərnəyinin üzvləri respublikanın daxili və xarici yarışlarında uğurla çıxış etmişlər. Məşqçi müəllim, rayon mədəniyyət evinin idman metodisti Sahib Nəsibovun yetirməsi Aytən Səmədli bu il Taekvondo üzrə Respublika çempionu və yeniyetmələr arasında karate üzrə Avropa və dünya çempionu olmuşdur.

Rayon ərazisində yerləşən Daşburun və Xalas sərhəd hissələri və Müdafiə Nazirliyinin 006 saylı hərbi hissələri rayon Mədəniyyət və Turizm şöbəsi tərəfindən hamiliyə götürülmüşdür. Belə ki, şöbənin kollektivi hərbi hissələrdə və sərhəd zastavalarında keçirilən bütün tədbirlərdə iştirak etməklə əsgər və zabitlərə daim mənəvi dəstək olurlar. Rayonun Kəbirli, Milabad, Bolsulu, Örənqala və Dünyamalılar kənd mədəniyyət evlərinin bu sahədə gördüyü işlər daha çox diqqəti cəlb edir. Ümumiyyətlə, 2009-cu il ərzində şöbənin kollektivi hərbi hissədəki mədəni xidmətlərinə görə hissələrin komandanlığı tərəfindən 14 dəfə fəxri fərman və diplomlarla mükafatlandırılmışdır.

Milli adət-ənənələrimizin qorunub saxlanması məqsədi ilə əsgərlər qarşısında 20 mart 2009-cu ildə rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə təşkil edilmiş "Novruz bayramını əsgərlərlə keçirək " ümumrayon tədbirində rayon Mədəniyyət və Turizm şöbəsi daha fəal iştirak edərək öz daxili imkanları hesabına düşmənlə üz-üzə dayanmış əsgərlərə birbaşa döyüş səngərlərində və sərhəd postunda "Novruz bayramı" sovqatları vermişdir.

Bu məqamı da oxucuların diqqətinə vermək yerinə düşər. Beyləqan rayonunda azsaylı xalqlarla görülən işlər də diqqətəlayiqdir. Rayonun Türklər kəndində yaşayan, azsaylı xalq hesab edilən, etnik azlığa malik olan Azxeti türklərinin adət-ənənələrinin saxlanması istiqamətində burada mütəmadi olaraq mədəni-kütləvi tədbirlər həyata keçirilmişdir. Belə ki, Türklər kənd klubunda türklərdən ibarət "Yaylaqlar" rəqs ansamblı yaradılmışdır. Rəqs ansamblının 15 nəfər üzvünün hamısı milli geyimlərlə təmin edilmişdir.

**Rayonun mədəni səviyyəsinin yüksəldilməsində, tədbirlərin keçirilməsində təşəbbüs və köməyi ilə fərqlənən rayon İcra Hakimiyyətinin başçısının zəhməti danılmazdır. Bu qayğı və diqqət bizi daha yaxşı çalışmağa ruhlandırır.**

● **Pəhləvi ABDULLAYEV,**
***Beyləqan Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri***